

Sabir Arazlı Özgün

# Erməni xislətinin dumanlı kölgələri

## (polemik əsintilər)



(əvvəli ötən sayımızda)

***2. ... 1878-ci ilin uyul ayında Avropa ölkələri erməni xalqının əmin-amanlığının və təhlükəsizliyinin təmin olunması üçün Berlində anlaşma (doqovor) qəbul etmişdir.***

***Yeri gəlmişkən, vurğulanan Berlin konqresi barədə kitabın 357-ci səhifəsindəki məlumatı olduğu kimi önə çəkirəm; "Konstantinopolda (San-Stefanoda) 1877-78-ci illərdə Rusiya ilə Türkiyə arasında gedən müharibədə türklər məğlub olduqdan sonra sülh anlaşması (müqaviləsi) imzalandı. Həmin anlaşmaya görə Cənubi Besserabiya, Qars, Batumi, Ardvin, Ardaqan, Bəyazid... Rusiyanın tabeliyinə keçdi. 16-cı maddəyə əsasən artıq Qərbi Ermənistan Rusiyanın nəzarətində idi. Berlin konqresində həmin maddə müzakirə edilərək erməni xalqının maraqları daxilində öz həllini tapdı".***

Kitabın 70-ci səhifəsindəki məlumat isə daha ətraflıdır: "1 iyun 1878-ci ildə İtaliya, Rusiya, Almaniya, Macar-Avstriya, Fransa, İngiltərə və Osmanlı İmperiyasının da qatıldığı konqresdə sülh müqaviləsi qəbul olundu. Həmin müqavilənin 61-ci maddəsində aydın şəkildə vurğulanır ki, xristian ermənilər 301-ci ildən, yəni Ermənistan çarı I Trdatın sarsılmaz dövlətçiliyi dövründən bu ərazilərdə yaşamışlar, lakin sonradan çarlıq türklər tərəfindən məhv edilmişdir".

Bir daha: ermənilər "Berlin konqresi" məsələsində ondan sonrakı illərdə də israrla çeynədiklərini çürütməyə çalışırdılar. Erməni patriarxının konqresə təqdim etdiyi məruzəsindən: "1878-ci ilə qədər altı erməni vilayətində (Van, Bitlis, Ərzurum, Sivas, Xarxut, Diyarbəkir) 1.330.000 əhali yaşamışdır. 1896-cı ildə cəmi 737 min erməni qalmışdır. Təkcə 1895-ci ildə 85 min erməni öldürülmüşdür. 18 ildə II Əbdülhəmidin antierməni siyasəti nəticəsində 2500 şəhər və kəndlərimiz dağıdılmışdır. 568 monastr və kilsə məhv edilərək yerində 282 məscid inşa edilmişdir. Türklər erməni qadınlarını ərlərinin gözü qarşısında zorlayırlar..."

Əslində patriarx Berlin konqresinə təqdim etdiyi məruzəsində ifadəni o cür işlətsə də, özlərinin içində təbliğat aparırdı ki, bizə dövlət yaratmaq üçün bənnadan, papaqçıdan, dülgərdən daha çox döyüşməyi bacaran, vətən təəssübü çəkən igidlər lazımdır. Ona görə qadınlarınızın başqa millətlə intim münasibətdə olmalarına heç bir əngəl yaratmayın. Onsuz da onlar buna çox həvəslidirlər, hətta ərlərini belə saya salmırlar. Çalışın qızlarınız türklərlə daha çox nigaha girsinlər. Yeni nəsil yaratmalıyıq ki, Böyük Ermənistan xəyalımızı gerçəkləşdirə bilək.

Sözə qüvvət. V.Veliçko deyir: "Erməni qadınları başqa xalqların nümayəndələri ilə zorla, məcburən də olsa, zinalıq edirlər. Şərəfini itirmiş erməni qadınlarıyla münasibətdə İran əsgərləri, türklər, gürcülər və dağlılar heç bir ədəb-ərkan gözləmirlər. Bu səbəbdən də ermənilərin damarlarında hər cür qanların qarışığı axır".

1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyü çərçivəsində bəstəkar Fikrət Əmirovun "Sevil" operası nümayiş olundu. Tamaşadan az sonra bir görüş zamanı SSRİ-nin dövlət başçısı N.S.Xruşşov yanında əyləşən A.Mikoyana göz vuraraq Azərbaycan rəhbəri İ.Mustafayevdən soruşur:

***- İmam Daşdəmiroviç, Balaşı bu ağır duruma salan Edilya kimdir? Anastas deyir ki, o qadın azərbaycanlıdır.***

***İ.Mustafayev məsələni anlayır və təmkinlə cavab verir:***

***-Yoldaş Nikita Sergeyeviç, Edilya bir pozğun erməni qadınıdır. Bunu o da çox gözəl bilir. (M.Əfşan "Qasırğalar burulğanında", "Elm və təhsil"h., B., 2013, s.171).***

Həmin illərdə II Vazgen Bakıya gəlmişdi. Bu, o vaxtlar idi ki, Krım Rusiya Federasiyasından alınaraq Ukraynanın tərkibinə qatılmışdı. Bunu fürsət bilib baş keşiş deyir: "İmam Daşdəmiroviç, Naxçıvan da məsafəcə Bakıdan İrəvana daha çox yaxındır, ..." Bu zaman İ. Mustafayev əsəbləşir və "On il öncə yüz mindən artıq azərbaycanlını deportasiya etdiniz Ermənistandan, bəs eləmədi?!."- deyərək hiyləgər ermənin sərsəm xəyalının ağzına elə bir daş basır ki, udqunub qalır (Yenə orada, s.273).

3. "... Ərzincanla Sivas arasında 1915-ci ilin iyununda vəhşicəsinə məhv edilən, on minlərlə ermənının, - qadın və uşağın kəllələrindən ibarət qalaqlanmış yüksək təpəcik qorxunc mənzərə yaradırdı".

4. ... 15 mart 1921-ci ildə erməni tələbə Teyliryan keçmiş baş nazir Tələt paşanı Berlinin Qardenberq küçəsində, yaşadığı evin yaxınlığında atəş açaraq öldürdü. Buna səbəb onun Tələt paşanı erməni xalqının kütləvi şəkildə məhv edilməsində əsas günahkar hesab etməsi idi. 1956-cı ildə Qahirədə erməni dilində çap olunan "Xatirələr" kitabında qeyd edildiyi kimi, Berlin məhkəməsi 2-3 iyun 1921-ci ildə C.Teyliryana bəraət qazandırdı. Çünki onun Vertqauler, fon Qordon kimi tanınmış vəkilləri vardı (Veqner də bu qətli haqlı hesab edirdi). Tələt paşanın nəşi 1943-cü ildə Berlindən Türkiyəyə gətirildi və 1981-ci ilin martında (qətlin 60 illiyində) bu faciə İstanbulda təntənəli şəraitdə xatırlandı. 1922-ci ildə isə yenə də Berlində Bahəddin Şakir A.Erkanyan və Arş. Şirakyan tərəfindən öldürüldü. Onu da qeyd edim ki, 1890-ci ildən almanların ermənilərlə "dostluq cəmiyyəti" yardılmışdır.

Professor Volfditerin "1915-ci il soyqırımı"yla bağlı dördcildliyindən:

1. ... 1914-cü il avqustun əvvəllərində türklər Ərzurumdakı daşnak partiyasına, - ... əgər rusların əleyhinə bizi müdafiə etsəniz, Rusiya Ermənistanı ilə birlikdə türk vilayətləri Ərzurum, Van, Bitlis də daxil olmaqla muxtar erməni dövləti yaradacağıq, - deyə söz vermişdilər (s. 97).

2. ... 24-26 aprel 1915-ci ildə Konstantinopolda həbs edilən dəqiq 600 erməni deputat, partiya rəhbəri, yazıçı, jurnalist, həkimg Kiçik Asiyaya deportasiya olundu (s. 99).

Lepsius!.. – O kimdir?

İohannes Lepsius ermənipərəst şərqşünasdır. 30 ilə yaxın Qərbi Ermənistanda zülmə, əzaba məruz qalmış erməni xalqının problemləri ilə məşğul olmuşdur. "Erməni xalqının ölüm dərsləri", "Almaniya və Ermənistan 1914-1918-ci illərdə", "Türkiyədəki erməni xalqının vəziyyəti barədə hesabat" və s. kitabların müəllifidir. Qızları Veronika və Korina 1980-1987-ci illərdə Ermənistanda olmuşlar. Nəvəsi Manfred Aşke 1990-cı ildə İrəvandakı hərəkatda yaxından iştirak etmişdir.

***Lepsiusun "Ermənilərə nə etmişlər? Danışmağın vaxtı çatmışdır" yazısından sətirlər: "... Bərbad oldu hər şey. Konstantinopoldan, Mosuldan, Bağdaddan, Yerisəlimdən... deportasiya edilən, türk şəhərlərindən və kürd kəndlərindən Ərəbistan çöllərinə doğru qovulan 150 mindən artıq erməni xalqı – qocalar, qadınlar, uşaqlar yollarda aclıqdan, susuzluqdan məhv olurdular. Onların yaşamaq hüququ yox idimi? Yüzminlərlə səfil vəziyyətinə düşən, səfalət içində yaşayan həmin insanların taleyi sizi narahat etmirmi?"***

"Danışmağın vaxtı çatmışdır" deyir Lepsius, lakin ermənilərin nələr etdikləri barədə heç nə demir. Digərləri kimi erməni mövqeyindən çıxış edir.

Doktor İ.Lepsius hətta 20 avqust 1915-ci ildə Ənvər paşa ilə görüşmüş, ölkə daxilindəki vəziyyəti - xüsusi olaraq erməni məsələsini müzakirə etmişdir.

Potsdamdakı Almaniya mərkəzi arxivindən: ... Təbrizdə belə deyirlər ki, ermənilər evin damından türklərə atəş açıb. İran hökuməti xoşbəxtlikdən "bu erməniləri" tutmağa müvəffəq olublar və - nado je! – görüblər ki, bunlar erməni kostyumu geymiş türklərdir (s.217).

"Ermənilərin deportasiyası necə baş vermişdir (s. 305) yazısından: "... qız acılar içində ağlayırdı. Mən onu təqib etdim və öyrəndim ki, bu qız 9 yaşlı Cəlilədir. O, türk idi. Ondan ataanasının, qardaşının harada olduğunu soruşdum.

Dedi:

- Hamısını öldürdülər. Təkcə mən sağ qalmışam.

- Onları kim öldürdü?

- Ermənilər!

- Sizə kim dedi ki, onları ermənilər öldürdü?

- Bizi evdə bu cür öyrədiblər...

O öz hekayəsini danışdı. Məlum oldu ki, onları türk əsgərləri öldürüb. Sonra Cəlilə ümidsiz halda özünü üstümə ataraq, – mən azyaşlı və müdafiə olunmayan bir qızam, lütfən məni tərk edib getməyin! – dedi".

Yazı müəllifinin nə demək istədiyi bəlli oldu. Deməli, erməni qadınları ömrü boyu ona görə dünyaya uşaq gətirərkən körpəsinə süd əvəzinə ilk olaraq "Türk gəldi!.." zəhəri içirər, qorxu və düşmənçilik xofu yaradarlar.

Həmin qadınları nəzərdə tutaraq yazmışam ki:

İlan anası da olsa, anadır,<br>Gərək balasına zəhər verməsin!

A.Qrabovskinin "Erməni problemi" (s.290) yazısından: "I Dünya müharibəsindən əvvəl Türkiyədə 2 milyon erməni yaşayırdı. Onlardan bir milyondan çoxu deportasiya olundu. 300 mindən çoxu Qafqaza qaçdı... Bununla belə Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra gürcülərdən, ermənilərdən və tatarlardan ibarət müstəqil Zaqafqaziya respublikaları yarandı."

***Həm Molçanovun, həm də "Qermanskiye istoçniki o qenotside armyan" kitablarının "erməni redaktəsiylə" yazıldığı və tərtib olunduğu aşkardır.***

***3. C.S.Kirokasyanın "Mladoturki pered sudom istorii", "Ayastan" n., 1989 (1986-cı il erməncə nəşrindən rus dilinə tərcümə).***

***Kirokasyan kimdir? "Kommunist"dir, elmlər doktorudur. Ermənistan dövlət mükafatı laureatıdır. On il Ermənistanın xarici işlər naziri işləyib və s.***

(ardı gələn sayımızda)